*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Poetika.izm, 2023, № 1* *ISSN: 2663-2926*
*Səhifə: 28-34* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-2926.2023.1.28*

# Çağdaş nəsrdə mifoloji və epik zaman
## *(“Köç” romanı əsasında)*

**Ayşən Məmmədrzayeva**
E-mail: zeyd.mammadov.11@mail.ru

**Annotasiya**. Məqalədə çağdaş bədii nəsrdə mifik zamanla, epik zaman paralel şəkildə təhlil olunmuşdur. Epik zaman real olmayan bədii, məcazlaşdırılmış zaman olduğu üçün burada mifoloji dövrün bütün cizgiləri toxunulmaz olaraq qalır. Mifoloji zamanla real zaman arasında bəzən müəyyən yaxınlıq da baş verir, lakin epik zaman mifoloji zamanla bənzərlik təşkil etsə də, fərqli xüsusiyyətləri də çoxdur. Epik zamanda müstəqil qəhrəman mövcud olduğu kimi, hadisələr də reallıqla əlaqəlidir. Epik zamanın qəhrəmanı özünü bütün mifoloji varlıqlardan ayırır; tarixi hadisə və obrazların qeyri-adiliyi ilə fərqlənir. Məqalədə bu xüsusiyyətlər bir neçə roman üzərində araşdırılmışdır.
**Açar sözlər:** köç, zaman, mif, epik, nəsr

**Məqalə tarixçəsi:** göndərilib – 03.03.2023; qəbul edilib – 15.03.2023

# Mythological time and epic time in contemporary prose
## *(on the basis of novel “Migration”)*

**Ayshan Mammadrzayeva**
E-mail: zeyd.mammadov.11@mail.ru

**Abstract.** In the article, mythic time and epic time are analyzed in parallel in modern artistic prose. Since the epic time is an artistic, metaphorical time that is not real, all the features of the mythological period remain intact here. There is sometimes a certain closeness between mythological time and real time, but even though epic time is similar to mythological time, it also has many different features. Just as the independent hero exists in the epic time, the events are also related to reality. The hero of epic time separates himself from all mythological beings; differs in the unusualness of historical events and images. In the article, these features are studied on several novels.
**Keywords:** migration, time, myth, epic, prose

**Article history:** received – 03.03.2023; accepted − 15.03.2023

### Giriş / *Introduction*

80-ci illərdən başlayaraq Azərbaycan bədii nəsri yeni inkişaf mərhələsinə qədəm qoyur. Altmışıncıların iyirmi il ərzində müəyyən bir inkişaf yolu keçməsi, dünyada baş verən ictimai-siyasi proseslər bədii düşüncəyə də öz təsirini göstərir. Kafkanın “Çevrilmə” əsərinin hələ 60-cı illərdə

Azərbaycan dilində çap olunması, 70-80-ci illərdə Qabriel Qarsiya Markesin, Uilyam Foklnerin, Vasili Belovun, Rasputinin, Çingiz Aytmatovun, Nodar Dümbadzenin, eləcə də bir çox görkəmli və dünya şöhrətli yazıçıların əsərlərinin tərcüməsi ədəbi mühitə və düşüncəyə təsirsiz qalmadı. Azərbaycan nasirlərinin həyata və insana münasibətində əhəmiyyətli dönüş əmələ gəldi. İnsan-cəmiyyət, insan-təbiət münasibətlərinin yeni qatları bədii fikrin strukturuna daxil oldu. Nəsrin axtarışları yalnız bədii qəhrəman, obrazlarla məhdudlaşmadı, eləcə də janr-üslub xüsusiyyətləri, ideya-məzmun baxımından yeniləndi. Vüsətli epik lövhələrə meyil etmiş nəsr estetik idealın ifadə tərzinə, yığcamlığa, kiçik detalların təsvirinə yönəldi. İlyas Əfəndiyev, İsa Hüseynov (Muğanna), Anar, Elçin, Maqsud İbrahimbəyov, Sabir Əhmədov, Vidadi Babanlı, Sabir Azəri, İsi Məlikzadə, Yusif Səmədoğlu, Mövlud Süleymanlı, Ramiz Rövşən və başqalarının nəsr yaradıcılığında yeni estetik, orijinal boyalar ortaya çıxdı. Bir sözlə, ədəbi proses yeni axtarış yolunda estetik mühakimələrinin təzəliyi, orijinal təsvirlərin yeniliyi, canlı təsvirlərlə fərqləndi. Əgər əvvəllər həyat faktlarına sadiqlik əsas təşkil edirdisə, indi meyarlar dəyişmişdir. Bunu zamanında hiss edən tənqidçi Akif Hüseynov "Zamanın və nəsrin hərəkəti" adlı məqaləsində yazırdı: *"Müasir nəsrdə nəzərəçarpan ən mühüm cəhətlərdən biri budur ki, cəmiyyətin inkişaf qanunauyğunluqları, aparıcı və həlledici cəhətlər nə qədər vacib və zəruri olsa da, sənət üçün artıq azlıq edir, indi fərdi, əvvəllər bəlkə də əhəmiyyətsiz, ikinci dərəcəli hesab olunan cəhətlərə də böyük diqqət yetirilir"* [2, s.19]. Tənqidçi A.Hüseynovun zamanında qeyd etdiyi bu meyil, getdikcə Azərbaycan bədii nəsrinin əsas xüsusiyyətinə çevrilmiş, müasir zövq və meyarlar əsas götürülmüş, müəlliflə qəhrəman arasında məsafə aradan götürülmüş, hətta bəzən eyniləşmişdir. Bədii nəsr təkcə dil, üslub, bədii təsvir və ifadə vasitələri, eləcə də, məzmun və ideya baxımından dəyişməmiş, həm də bədii zamanın strukturu baxımından yenilənmiş və dəyişmişdir. İsa Hüseynovun "İdeal", "Əbədiyyət", "Türfə", "GürUn", "Cəhənnəm", Anarın "Beşmərtəbəli evin altıncı mərtəbəsi", "Əlaqə", Elçinin "Ölüm hökmü", Yusif Səmədoğlunun "Qətl günü", İsi Məlikzadənin "Dədə palıd", "Qırmızı yağış", Sabir Əhmədovun "Toğana", "Yasamal gölündə qayıqlar üzür", "Gedənlərin qayıtması", Ç.Hüseynovun "Fətəli fəthi", "Məhəmməd, Məmməd, Məmiş", Maqsud İbrahimbəyovun "Bayquş gəlmədi", "Ondan yaxşı qardaş yox idi", Ə.Cəfərzadənin "Bakı-1501", "Cəlaliyyə", Mövlud Süleymanlının "Dəyirman", "Köç", "Şeytan" və s. kimi əsərlərində bədii zamanın müxtəlif rakursları təsvir edilirdi. Bu əsərlərdə zamanın strukturu əvvəllər olduğu kimi, müəyyən bir xətt üzrə inkişaf etmir, onun sujet xəttini zənginləşdirən mühüm bir komponentə çevrilir. Burada hadisələr zaman daxilində inkişaf edir, formalaşır və yüksəlməyə başlayır. Hadisələr inkişaf etdikcə, problemlər ən yüksək nöqtəyə – zirvəyə çatır. Zirvədəki hadisələr müəyyən bir zamanda həll olunaraq açılışa doğru gedir və nəticədə hadisələr finala çatır. Zaman insan beynində yer edən hər cür məlumatları və insan xarakterinin ən böyük duyğularını və oxuyanların diqqətini cəlb edəcək şəkildə əks etdirmək yollarından biri kimi səciyyələnir. Bu dövrdə yaranan bədii nəsr nümunələrinin əsas özəlliklərindən biri də bu idi ki, xalqın keçmişinə üz tutulur, nəsrin zaman dilimi genişləndirilirdi. Xalqın keçmişi, tarixi, bütövlükdə, nəsrimiz üçün bir bədii mənbə rolu oynayır.

## *Əsas hissə / Main part*

Məlumdur ki, hər bir xalqın bugünündə onun özünə məlum olmayan keçmişi dayanır. Bu keçmişi biz yalnız mifologiyada axtarırıq. Mifologiya eramızdan əvvəl həyat sürən xalqların təfəkküründə inanc sistemi kimi mühüm yer tutur. Bu inanc sistemində həmişə insan və təbiətin reallaşdıra bilmədiyi hadisələr əks olunur ki, bunlar da bütün xalqın təfəkkürünün məhsuludur. Hər hansı bir ölkənin keçmişini tədqiq edərkən ilk müraciət edilən obyekt məhz mifoloji düşüncə olur. Çünki ilk insanların yaşadıqları dövrlər haqqında məlumatlar mifologiyada daha sıx toplanmışdır. Rus alimi İ.İlyin mifologiyanın forma və məzmun zənginliyi haqqında yazır: *"Mif, forma və məzmunu, simvolu və modeli müəyyənləşdirir, tez-tez mövzu və obyekt, işarəsi, şey və sözü,*

*mahiyyəti və adı, obyekti və xüsusiyyətləri, eləcə də fərdi və çoxluq, yer və vaxt, mənşəyi və təbiəti arasında fərq qoymur"* [8, s.24-31]. Ədəbiyyatşünas R.Əliyev mifologiyada xalqın tarixinin əks olunduğu qənaətinə gəlir: *"Belə demək olarsa, mifologiya xalqın tarixini yaşadır. Müxtəlif xalqların mifoloji görüşləri də müxtəlifdir. Amma buna baxmayaraq, bu xalqların ortaq nümunələrinə də rast gəlmək mümükündür. "Köç", "Yaradılış" və s. dastanlar ümumtürk mifologiyasının məhsuludur. Əslində, mifologiyanı öyrənmək xalqın tarixini öyrənmək deməkdir. Mifologiyasız xalq yoxdur. Zəngin mifologiyaya malik olan xalqın nümayəndələri də onun tədqiqi ilə zaman-zaman məşğul olmuşdur"* [1, s.3]. Bu o deməkdir ki, insan dünya yaranandan bu günə qədər keçdiyi zaman ərzində öz varlığını qoruya bilmişdirsə, deməli, bu sahə bizə keçmiş zaman haqqında müəyyən qədər faktlar verə bilər. Zamanın burada nə qədər doğru və ya nə qədər yanlış əks olunması bəlli olmasa da, mövcud olmuş bir zamanın hadisələri haqqında düşünmə imkanımız kifayət qədərdir. Hərəkət edən zaman eyni dövrə ətrafında fırlansa da, hər zaman yeni hadisələr meydana gəlir ki, bu da bizə görmədiyimiz zaman haqqında müəyyən təsəvvürlər oyadır.

Zaman sonsuzdur: əvvəli və sonu yoxdur. Mifik əsərlər [şifahi xalq ədəbiyyatında] "belə deyirlər", "belə rəvayət edirlər" başlığı ilə başlayır, hadisələr surətlə inkişaf edir, qəhrəman sehrli qüvvələrlə döyüşür, sonda xeyir şər üzərində qələbə qazanır. Q.Q.Markesin "Yüz ilin tənhalığı" romanında bir nəslin-Buendia nəslinin yaranması, yüksəlişi və süqutu bədii zaman düşüncəsində təsvir edilir və biz Buendia nəslinin taleyini izləyirik. Nəslin ailə üzvlərinin bir-birindən xəbərsiz tənhalığı yaşaması və getdikcə bir-birini anlaya bilməmələri, qəhrəmanların talelərinin əvvəlcədən müəyyənləşdirilməsi, bütöv bir nəslin lənətlənməsi və s. romanda mifik xarakter daşıyır. Buendo nəslinin məhv edilməsinə bir neçə dəqiqə qalmış bu nəslin sanksrit dilində yazılmış bir tarixçənin qaraşçı tərəfindən açılması nəslin bəzən mifik, bəzən isə fantastik təsvirinə yol açır. Yazıçı şüurlu şəkildə nəqletmədə mifik təfəkkürə əsaslanır və bir nəslin taleyini müxtəlif zamanlar kontekstində təsvir edir. Azərbaycan bədii nəsrində mifoloji düşüncəyə meyil 80-ci illərdən sonra intensiv xarakter almağa başladı.

Epik zamanın xüsusiyyətlərindən biri də bir istiqamət üzrə hərəkət edən hadisənin hər an dəyişə bilməsidir. Bir istiqamət üzrə inkişaf edən hadisələr bir anda keçmişə qayıdır və bu günün davam etməsi üçün keçmişə qayıtmaq vacib hadisələrdən biri olur. Pərvizin "Yad dildə" romanında epik zamanla mifik zaman paralel şəkildə çıxış edir. Bu paralellik təkcə üç haqq aşığı Əli ibn Əbu Talib, Hüseyn ibn Əlidən, Nəsimidən gətirilən epiqraflardan deyil, qədim türk dünyagörüşündən də istifadələr vardır. Zaman baxımından isə həm qədim, həm ortaçağ, həm də bu gün canlandırılır. Yəni zaman "Xuntanın 2008-ci günü"ndə, Ortaçağda və bugünkü gündə məkan olaraq İçərişəhərdə baş verir. Beləliklə, əsərdə həm mifoloji təsəvvürlərimizin qaynaqlandığı qədim, həm dini-fəlsəfi düşüncənin hakim kəsildiyi ortaçağ, həm də yaşadığı zamanı birləşdirməklə üç dövrü əhatə edib. Lakin bunlar iç-içə elə qurulub ki, postmodernizmdə olduğu kimi, transformasiya nəzərə çarpmır. "Öləngi" romanında olduğu kimi, burada da yazıçı hadisələrin mahiyyətinə, zamanın alt qatına enir, daha çox psixoloji məqamlara diqqət yetirir, problemin mənəvi-fəlsəfi açılımına çalışır. Realist bir əsər olsa da, yazıçı bir çox mifik elementlərə əl atır. Xunta başçısı fotoqrafın əmisi oğlunun hüruf elminə vaqif olması, fotoqrafın ənəlhəqq şairlə onun öz dilində danışması və s. zamanın keçmişlə bu gün arasında getdiyini göstərir. Yazıçı ayrı-ayrı obrazlar vasitəsilə hadisələri iç-içə bir-birinə nəzarət edəcək formada təsvir edir. Bugünkü İçərişəhərin təsviri zamanı Şirvanşahlar sarayının postmodern üslubda təmiri ilə bağlı informasiya, əslində, çağdaş zamanın əsas xüsusiyyəti kimi səciyyələnir. Mətbuat konfransında "şahlığın bərpa olunmasının vacibliyi" ilə bağlı informasiya bugünlə orta əsrləri birləşdirir. Otuz iki bölmədən (bölmələrin adlarla deyil, rəqəmlərlə yazılması da rəmzi məna daşıyır!) ibarət romanda xalqın keçmişində özünə yer edən bir çox hadisələr təsvir olunur. Bu və ondan sonra işlənən 28 rəqəmi və s. təsadüfi işlənilmir; müəyyən bir rəmzi məna daşıyır. "ASI"nın 32 nəfərlik təşkilat olması, Kirvənin Sibirdə 32 il yaşaması, Bakının 32 kəndinin olması, romanı nəql edən Yalancığı hər gecə 03.02 (yəni 32) yuxudan oyanması, "biz rüşvət vermirik" aksiyasına 32 nəfərin qoşulması və s. rəmzi-metaforik səciyyə daşıyır. Yazıçı burada 28 rəqəmini də

müqəddəsləşdirir; təşkilatın 32 nəfərindən 28 oğlan, dördü xanım olması hurufizm rəqəminə işarə edir. Yazıçı irəli-geri hadisələri təsvir etməklə, Zərdüşt dövrünə gedir. Eləcə də Kərbəla hadisəsi təsvir olunur. Hüseynin Kərbəla uğrunda şəhid olmasını haqq-ədalət uğrunda şəhidlik kimi verir. Çağdaş hadisələrin Kərbəla ilə paralel təsvir edilməsi təkcə Bəkdüz Əmənlə şəbihçilərin dialoqunda deyil, bütün roman boyu davam edir.

M.Süleymanlının "Köç" romanında da bunun ən qabarıq nümunəsini görmək olur. Romanda da müəyyən dərəcədə oxşar nəslin taleyi ilə qarşılaşmış oluruq. Əslində, yazıçının bir sıra hekayələrində mifik təfəkkürün izlərinə rast gəlmək mümkündür. Yazıçı əsərin süjet xəttini tarixsiz bir zaman çərçivəsində cərəyan etdirir. Zamanı yalnız hadisələrin inkişafından dolayı təyin etmək mümkün olur. Zaman nə qədər düzgün və ardıcıl şəkildə davam edərsə, hadisələr də bir o qədər düzgün inkişaf edir. Uzun müddət Azərbaycan radiosunda "Bulaq" verilişində nağıl, rəvayət və əfsanələri toplayaraq səsləndirməsi onun bədii yaradıcılığına da öz təsirini göstərmişdir. Lakin M.Süleymanlı bu nağıl, əfsanə və rəvayətləri müasirləşdirmək yolu ilə bədii nəsrə gətirmədi, mifik zamanın özünün yeni bədii interpretasiyada obrazını yaratmağa nail oldu. Hekayələrinin birində adi təbiət təsvirində bədii zaman mifik təsvirdə verilirdi: *"Dan yeri sökülmüşdü. Havada sazaq vardı, amma dörd tərəf ki, uca-uca, sıra-sıra dağlar idi, sazağın səmti bilinmirdi. Bilmək olmurdu ki, ağ yeldəndimi, qara yeldəndimi. Otlar-əncərlər çiçəklər boyu üzünü dikəlib sazağa sarı açılmışdı. O yolacın o otunnan, bu yamacın bu otuna qəribə bir duyğu, qoxu gəlirdi ki, otlar-əncərlər, Güllər-çiçəklər də bu qoxunu, bu duyğunu duymuşdu. O yamacın güılünnən, bu yamacın gülünmə yellər sevgi gətirirdi, buna da Şamil kişi "puçur yeli" deyirdi. Quzuların ayağıyla, Bəkilin ayağıyla sevgi gəlirdi. Bu yamacın otları bu sevgini udub ayılırdı. Quşlar, böcəklər, arılar güllərə, otlara sevgi daşımaqdaydı"* [7, s. 67].

Burada yazıçı mifi təbiətdə əks etdirərək, təbiətin canlı bir qüvvə olduğunu demək istəyir. Yazıçı üçün, həqiqətən də, mif dövrün keçmişini əks etdirən bir qaynaqdır. Bu da ədəbiyyatın qədimliyini, vacibliyini, obrazlı şəkildə ifadə əks etdirsə də, dünyanın yaranması və formalaşması haqqında məlumat verən sahələrdən biridir. M.Süleymanlı "Köç" romanında məhz bu yolla getmiş və xalq ruhunun müəyyən bir dövrünü bədii zaman konseptində əks etdirmişdir. Nəticədə, "xalqımızın yüz illərdən bəri keçib gəldiyi yolların tarixi, adət və ənənələrini qoruyub saxladığı köçəri ruhunun bədii etnoqrafiyası" (Bəxtiyar Vahabzadə) əks etdirilmişdir. Əlbəttə, "Köç" romanını tarixi roman adlandırılması bir başqa problemin mövzusudur. Görünən odur ki, yazıçı burada keçmişə mifik kontekstdən yanaşmış, yurddan-yurda köçən, təbiətlə daim təmasda olan əcdadlarımızın taleyini təsvir etmişdir. Olsun ki, burada tarixi romanlarda olduğu kimi, tarixi dəqiqlik olmasın, yaxud mifoloji zaman və məkan bir qədər təhrif edilsin, hadisələr arasında səbəb-nəticə əlaqələrində müəyyən ziddiyyətlər də ola bilər. Zaman və məkanın real mövzularda əks olunandan fərqli olaraq təhrif edilməsi, səbəb-nəticə əlaqələrini göz önündə saxlayaraq reallığın fərqli şəkillərinin ortalığa çıxarılması mifoloji mətnlərin əsas xüsusiyyətlərindəndir. Tənqidçi Nazif Qəhrəmanlı "Köç" romanındakı zaman kontekstini çox doğru olaraq belə qiymətləndirir*: "Mövlud Süleymanlının "Köç" romanında əsas qəhrəman xalqdır. "Köç"də xalqın tarixi bir tayfanın tale "davamiyyəti" kimi düşünülmüşdür. Əsrlərdən-əsrlərə gedən bu köçün zaman dayanacağı yoxdur. Çünki zaman da tarix deməkdir"* [4, s.7].

M.Süleymanlı Y.V.Çəmənzəminlinin "Qızlar bulağı" romanında olduğu kimi, zamanı tarixi aspektdən daha çox mifoloji aspektdə təsvir edir. Burada konkret bir zaman anlayışı yoxdur, hadisələr yüzillər, onillərlə ölçülür. Yazıçı təkcə Qarakəllə tayfasının yüz illər əvvəlki həyat tərzini, düşüncəsini, etnoqrafiyasını təsvir etmir, həm də bu tayfanın qonşu tayfalar tərəfindən məhv olmamaq üçün apardığı çabanı göstərir. Bütün bunlar mifoloji düşüncə tərzi və zaman kontekstində təsvir edilir. Romanda zaman mifik kateqoriyaya çevrilir, zaman mifi yaranır və onu yaşatmaq üçün şüurlarda mifoloji zamanın anlayışı yaradılır. Zamanın mifik adlanması üçün onun baş verdiyi dövr özünəməxsus xüsusiyyətlərlə təsvir edilir. Yazıçı üçün zaman istənilən hadisədə fərqli xüsusiyyətə

malik olur. Bəzən isə hadisələr zamandan asılı olur. M.Süleymanlı yaradıcılı–ğının tədqiqatçısı Səyyad Aran (Salahlı) romanın mifik dərinliklərini, arxaik şüur qatını, yazı tərzinin milliliyini yüksək qiymətləndirərək yazır: *“Mifin tələb etdiyi qarşılaşmalar romanın konstruksiyasında iki tayfanın təcəssümündə rəmzləşdirilib: Qanıq tayfasında əbədi şərin, pisliyin, xəbisliyin, hiyləgərliyin obrazı, naqis və qaranlıq cəhətlər təmərküzləşdirilib; Qarakəllələrdə isə -əbədi xeyir qüvvələri, xeyirli əməllər, elin yaxşılıq, mərdlik, halallıq, mənəvi saflıq haqqında təsəvvürləri, hünər və qəhrəmanlıq dastanı kodlaşdırılıb”* [5, s.8].

“Köç” romanında Qarakəllə və Qanıquşağı tayfalarına aid təsvirlərdə etnoqrafik düşüncə tərzi də başlıca yer tutur. Yazıçı xalqın keçmişindən gələn adət-ənənələri, həyat tərzini təsvir etməklə qalmır, həm də insanların getdikcə təbiətdən uzaqlaşmasının səbəblərini göstərməyə çalışır. Xalqın milli adət-ənənələri, toy və yas mərasimləri, tayfalar arasında gedən düşmənçilik məsələsinə də münasibət bildirir. Burada hələ xalq təfəkkürü formalaşmayıb. Bunu yazıçı Qarakəllə eli, Qoşqar evi, Qanıquşağı camaatı deyimlərindən də görmək olar. Qarakəllə elinin yas mərasimində, toylarda qeyri-adi, bugündən uzaqlaşan xeyli sehrli, mistik adət-ənənələrdən bəhs edilir. Bunlar xalq arasında müəyyən təcrübədən keçib bu günümüzə qədər gəlmişdir. Folklorşünas alim Ramazan Qafarlı mifik görüşlərdə təcrübə və sınaqlardan doğan qənaətlərin durmasına nəzər yetirərək yazır: *“...vaxtın hər bir kəsiyinin bu və ya başqa ruhla, tanrı ilə, kainatın bütöv sisteminə aid hansısa prinsiplə mistik, sirli əlaqəsi mövcuddur. İnsanlar zamanı iki qismə bölürdülər: kiçik zaman onların yaşadıqları dövrün zamanı və müxtəlif dövrlərdə hökmdarların yaşadıqları dövrlərin zamanı. Mifoloji zamanın əsas xüsusiyyəti onun qapalı, təkrarlanan olması ilə əlaqədardır"* [3, s.347].

İmir heç kimi görmədiyi hadisələri görürdü. Uzaqdan bir yerdən atlı dəstəsinin keçdiyini hiss edirdi. Bunu qardaşı Bəkilə deyəndə Bəkil hər tərəfə boylansa da, bu atlıları görə bilmirdi. Yaxud İmir olacaq hadisələri öncədən yuxusunda görürdü və bunu danışanda heç kim inanmırdı. Qardaşı Bəkil onu yalan danışmaqda günahlandırırdı. Onun yuxusunda gördüyü hadisələr alın yazısına çevrilmişdi. Saracla Bəyimin otluqlar arasında uzaqdan görməsi də yanındakılara təəccüblü gəlir. Qızbəs xalanın eşşəyinin ayaqlarının kəsilməsi, hətta otluqdan bir dovşan çıxacağını, Saracın atının ipini qıraraq uzaqlara gedəcəyini də bir neçə an əvvəl görür və yanındakılara söyləyirdi.

İmiri döyərək sümüklərini qıranda Hürü qarı suya yalvara-yalvara “Kömək elə balama, ay bu suyun nuru!”, – deyə müraciət edir. Hürü qarı otları, çiçəkləri əzib suya qarışdırır və özünə gəlməyi üçün onu İmirə içizdirir. Su İmirin bədəninə daxil olduqda isə əli ilə yoxlayıb sınığın harada olduğunu müəyyənləşdirir. Hürü qarının Bəkilin sağalması üçün etdiyi dua da mifik səciyyə daşıyır: *”Yeri-göyü yaradan, günahkar bəndənəm, uluların ulusu, sən böyüksən, yer üzünün suçu böyüyür, keç günahlarımızdan, şeytan şərinnən, bəd əməlinnən qoru bizi. Gözün balalarımızn üstündə olsun, çox qana düşüdük, gözümüzü çəkməmişik yenə sənnən. İşimizi avand elə, ugurumuzu sayalı, körpənin yasdığı yüngül olsun, ulu Tanrı, ağıl ver ona. Birinin də ağ qarda, göy buzda çiyinlərini ağac yağır eliyib. Gözümüzü ona dikmişik, yağı gülləsindən qoru onu. Üstünə söylənənlərin dilin qısa, murazın gödək elə, amin”* [6, s.52-53].

“Köç” romanında ümumi zamanla yanaşı, daxili zaman da vardır. Yazıçı bəzən bu zamanı 20 il, yüz il kimi götürür və bu spektdə təsvir edirdi. Qarakəllə camaatı ilə Qanıquşağı tayfası arasında gedən qarşıdurma yüz illərə dayanırdı. Üç yüz il idi ki, Qarakəllə kökü ilə Qanıq nəslinin arasında qan axırdı. Üç yüz il idi, iki kök arasında döyüşlər gedirdi. Üç yüz il idi yan-yana, qırıla-qırıla, təzədən cücərə-cücərə yol gəlirdilər. Yazıçı bunu belə təsvir edir: *“Yüz-yüz illər dünyanın beli uzunu yol gedənlərə indi torpaq lazım olmuşdu.*

*-Bir yerdə yurd salaq, gen dünyanı ayağımız altda aldıq, bəyənək, bir küncdə özümüzə yer seçək. Nə ölənimizdən xəbər var, nə qalanımızdan.*

*Qarakəllələrin qarıları yüz il idi ağsaqqallara beləcə yalvara-yalvara dünyanı dolanırdılar. Dünyanın yaz aylarına, yaz günlərinə qarışıb, yaz gələn yerlərə gəlib, yaz gedən yerlərə gedirdilər.*

- *Su kimi yerimizdən oynadıq, qayıdaq yerlərimizi tapaq"* [6, s.62]. Yazıçı romanda qarıları daim köç üstündə, kişiləri ayaqları at üstündə yaşamaqdan ayaqları yerə gəlməyən, qızları at üstündə köçən bir tayfa olaraq verir. Zaman burada yüz illərlə ölçülürdü. Bununla yanaşı, yazıçı daxili və konkret zamanlardan da istifadə edir. İmirin kiçik uşaq olması, yeddi il bundan əvvəl göydəmir atların üstündə sonuncu Qarakəllə Göyüşün arvadı Sənəmlə köçdən gələrkən yolda öldürülməsi, Sənəmin qarnında İmirin olması və onun dağların o üzünü görməsi və s. daxili zamanın əlamətləridir. Yaxud Domrulun 20 il əvvəl başına gələn bir hadisədən ağrısı itmişdi, ağrı nədir bilməməsi hadisəsinə nəzər salaq. Ağrı hissini itirdikdən sonra çox güclənmişdi. Heç kim onun gücdə deyildi. Domrul Qızbəs xalanın eşşəyinin ayaqlarını kəsməsindən sonra əlində balta Qızbəs arvadın üstünə gedir ki, onu balta ilə vursun. Lakin Bəkil qolunu baltanın altına verir və balta Domrulun əlindən düşür. Kənddə dəli hesab etdikləri Domrulu boğazından boğur: *"İyirmi il idi ağrının nə olduğunu bilmirdi. Əvvəl boğazı ağrıdı, sonra başı ağrıdı, qalxıb dizi üstə durdu, gözlərini yerə dikib gülümsədi. Quru torpaq kimi çat-çat olub yanmış quru sifətində ağrı dolaşırdı. Ağrı Domrulu su kimi yuyurdu. Sonra ürəyinə ağrı düşdü. Əlini ürəyinin üstünə qoydu, nəsə demək istəyirdi. Demək istəyirdi: Məni ağaca bağlayanlar qanıquşağı idi..."* [6, s.27].

"Köç" romanının sonunda hadisələr bir qədər konkretləşir; bu zaman XX əsrin 20-ci illərinə gəlib çıxır. On beş il idi ki, Qutluğun qulağı kəsildiyindən ona "kəsikqulaq" deyirdilər. Qutluğun içini kin bağlasa da, illər keçdikcə öz içinə yığılmış qana batırdı. Yazıçı burada rəmzlərdən istifadə edir. Əsərin sonunda müəyyən bir zaman göstərilsə də, Qarakəllə tayfasının keçdiyi yol yüz illərlə ölçülür. Bu əsər həm də bütöv bir nəslin keçdiyi yolun taleyi kimi səslənir. Burada zaman ölçüləri də müxtəlif cür verilir; uyğun olan 3-cü zamanda inkişafın son nöqtəsindən geriyə dönüşün mərhələlərinin keçirilməsi prosesi baş verir.

## Nəticə / *Conclusion*

Beləliklə, çağdaş bədii nəsrdə mifik zamanla epik zamanın paralel şəkildə təzahür etdiyini görmək mümkündür. Epik zaman real olmayan bədii, məcazlaşdırılmış zaman olduğu üçün burada mifoloji dövrün bütün cizgiləri toxunulmaz olaraq qalır. Mifoloji zamanla real zaman arasında bəzən müəyyən yaxınlıq da baş verir, lakin epik zaman mifoloji zamanla bənzərlik təşkil etsə də, fərqli xüsusiyyətləri də çoxdur. Epik zamanda müstəqil qəhrəman mövcud olduğu kimi, hadisələr də reallıqla əlaqəlidir. Epik zamanın qəhrəmanı özünü bütün mifoloji varlıqlardan ayırır; tarixi hadisə və obrazların qeyri-adiliyi ilə fərqlənir.

## Ədəbiyyat / *References*


1. Əliyev, R. Azərbaycan nağıllarında mifik görüşlər. – Bakı: Elm, 1992.
2. Hüseynov, A. Nəsr və zaman. – Bakı, Yazıçı, 1980.
3. Qafarlı, R. Azərbaycan türklərinin mifologiyası [qaynaqları, təsnifatı, obrazları, genezisi, evolusiyası və poetikası]. – Bakı: ADPU-nun nəşri, 2010.
4. Qəhrəmanlı, N. Tarixin fəlsəfəsinə doğru. "Ədəbiyyat və incəsənət, 1982, 12 fevral.
5. Səyyad, A. Mövlud Süleymanlı romanları milli katarsizə çağırır//Süleymanlı M. Üç roman. Köç. Ceviz qurdu.Səs. – Bakı, Azərbaycan nəşriyyatı, 2004.
6. Süleymanlı, M. Üç roman. Köç. Ceviz qurdu. Səs. – Bakı, Azərbaycan nəşriyyatı, 2004.
7. Süleymanlı, M. Şəhər toylarının səsi. – Bakı, Gənclik, 1985.
8. Ильин, И.П. Деконстукция / И.П.Ильин // Западное литературоведение XX века. – М., 2004.

# Мифологическое и эпическое время в современной прозе
## *(по роману «Кочевье»)*

**Айшен Мамедрзаева**
E-mail: zeyd.mammadov.11@mail.ru

**Резюме.** В статье параллельно анализируются мифическое и эпическое время в современной художественной прозе. Поскольку эпическое время есть время художественное, образное, нереальное, все черты мифологического периода остаются нетронутыми. Иногда существует определенная близость между мифологическим временем и реальным временем, но хотя эпическое время похоже на мифологическое время, оно также имеет много различных характеристик. Как самостоятельный герой существует в эпическом времени, так и события связаны с реальностью. Герой эпического времени отделяет себя от всех мифологических существ; Его отличает необычность исторических событий и образов. В статье эти особенности рассматриваются на нескольких романах.
**Ключевые слова:** кочевье, время, миф, эпос, проза